

***Yaşlandıqca müdrikləşən, nurlanan, cavanlaşan Oqtay Rzanın 80 illik yubleyi keçən il həm paytaxtda, həm də doğulduğu Salyan şəhərində yüksək səviyyədə qeyd edildi. Azərbaycan Yazıçılar Birliyinin ədəbi dərgiləri, eləcə də müxtəlif mətbuat orqanları Oqtay müəllimin yubleyinə həsr olunmuş yazıları səxavətlə dərc etdilər. "Kaspi" qəzeti olaraq biz də Oqtay Rzanın yubleyinə həsr olnunmuş yazılara yer verdik. Bu il də Oqtay müəllimin 81 yaşını öz şeirləri ilə təbrik edib, ona can sağlığı arzulamaqdan qürur duyuruq.***

# QOŞA QANADIMDIR ELM VƏ SƏNƏT!

**Oqtay RZA**

### CÜT QÜVVƏ

Cüt qüvvə fırladır anamız Yeri,
Bütün ulduzları, səyyarələri.
Daim hərləndirən bu böyük gücün
Tamam açılmayıb göy boyda sirri.

Günəş təmənnasız nur yaymaq üçün,
Özünü sönməyən oda döndərib;
Yerin təkliyinə son qoymaq üçün,
Yerin harayına Ayı göndərib.

Qoşa bülbülü var gəzdiyim bağın,
Qoşa arzuludur elin ürəyi;
Atalar məsəli - evin, ocağın
Kişi çörəyidir, qadın dirəyi.

Çayda - zirvələrdən yol gələn sular,
Toyda - gənclərimiz "Yallı" gedirlər.
Cüt uçur havada səyyah durnalar,
Cüt gəzir meşədə zəhmli şirlər.

Cüt qanad kimidir ünsiyyət, vüsal,
Filin də qürbətdə qalmaz taqəti;
Əbədi ülfətə ən gözəl misal-
Leylək səxavəti, qu sədaqəti!

Cüt qüvvə nəğməsi oxuyaraq mən,
Marsda da deyərəm: "Vahiddir Vətən".
Vətəni ikiyə bölən zolaqda
Sanıram cüt qüvvə düşür qüvvədən.

Cüt qüvvə qanunu! Səslər əzmilə,
Sən nə əfsanəsən, nə də rəvayət.
Səni kəşf eləyən alim Ponsele*
Ömür -gün yoldaşı tapıb nəhayət.

Fırlanır dərə, dağ. Fırlanır dəniz,
Qitələr, adalar fırlanır müdam.
Qafil, cüt qüvvəsiz yox olarıq biz
Cüt qüvvə - yaşamaq məhəbbət, inam!

** Fransız fiziki*

### DÜNYA SAKİTLƏŞİR...

Bürüyüb aləmi müdhiş təkanlar,
Titrəyir daha çox dağlıq məkanlar.
Təyyarə sürətli sualtı zərbə-
Sunnami bəladər, ya müharibə?
Bir anda uçulub dağılır evlər,
Sanki dərinlikdə hirslənib "divlər".
Ya da üşütmə var Ərzin canında
Zəlzələ - narahat Hind ümmanında,
Yapon dənizində, Odlu Torpaqda,
Lerikdə, Şəkidə, Bakıda, Qaxda
Gəzir planeti vahimə, qorxu-
Azacıq əyilib fırlanan oxu;
Ayınmı, göyünmü təsiridir bu,
Zalım fələyinmi "əsər"idir bu?
Nədir dəhşətləri törədən, nədir?
Niyə dərd üstünə gəlib yenə dərd?
İnsanlar! Bəlkə də, bəlkə də üç-dörd
Səbəbin böyüyü özümüzdədir?
Torpaq davaları, tamah, ölüm, qan
Niyə Küremizdə artır durmadan?
Vallah dinc yaşasaq, versək əl-ələ,
Dünya sakitləşər, olmaz zəlzələ!

* * *

Azov sakit, mehriban,
Güzgü tutur adama;
Azovu seyr edirəm,
Xəzər düşür yadıma.
Azov Xəzərdən dayaz,
Xəzər Azovdan iri;
Azovun da Xəzərtək
Az deyil sərvətləri.
Görün sərin sularda
Sinəm niyə odlanır:
Xəzərə göl deyirlər,
Azov dəniz adlanır

### DƏNİZ ÖMRÜ

Dəniz okeansız qalandan bəri,
Göz yaşı axıtdı yaz yağışıtək;
Sahillər dağıdan o cəngavəri
Sahillər bürüdü üzük qaşıtək.

Min il həyatını keçirdi təkcə,
Əsrlər gördü ki, nəfəsi odlu;
Dalğası, ləpəsi zəiflədikcə,
Dəniz -göl kiçilib bataqlıq oldu.

Budur, seyr edirəm düzəni, dağı,
Qədim süxurlara nəzər salıram;
Toplayıb rəngbərəng balıqqulağı,
Dənizi onlardan xəbər alıram.

Sanıram daşlardan qopur həzin səs,
Dəniz ömrünün də hüdudları var;
Dəniz okeansız yaşaya bilməz,
Dənizlər ümmana arxalanırlar!

### GƏMİ, QAYIQ

Xəyal gələcəkdən gətirib soraq,
Daim yeniliyə can atıb bəşər;
Gəmi icadından, kəşfindən qabaq
Qayıq möcüzəsi yaradıb bəşər.

Gəmi - üfüqlərdə nöqtə, xal kimi.
İqlimdən-iqlimə köçənlər artır;
Okean səyyahı Heyerdal kimi
Qayıqda dəryanı keçənlər artır.

Gəmilər möhtəşəm, gəmilər qəşəng,
Gəmi- katamaran,
Gəmi- kreyser;
"Sos" - haray, çağırış, kömək istəmək,
Dara düşənlərə vaxtında hay ver!

Çıraqban sahilə gəmi yan alar,
Sayaq gəmi üçün zülmət əridir;
Suda oğrun-oğrun üzən minalar
Gəmi karvanının düşmənləridir.

Bərəkət daşısın gəmi həmişə,
Hidrogen, neytron gəzdirməsin qoy;
Dünya ümmamını salıb təşvişə,
Səmum küləkləri əsdirməsin qoy!

Mən də fırtınaya sinə gərmişəm,
Gəmiyəm, kompasım inamdır ancaq;
Gəminin köksündə qayıq görmüşəm,
Qayıq çətin gündə gərək olacaq!

### HOLFSTRİM* KİMİ

Sevinirik gül açanda çəkilən zəhmət,
Kim bərəkət arzulamaz el süfrəsinə?
Yaman şeydir adamlarda buz münasibət
Öz müqəddəs, vətəndaşlıq vəzifəsinə.

Bir küçənin dizə çıxıb zibili, zığı,
Tozdan qorun - hərgah yayda bərk külək əssə;
Təzə nazir xoşlayırmış bürokratlığı,
Tufan qopar guya hərdən piyada gəzsə.

Bu payızı qəfil yağan qar qış eyləyib,
Ocaq yanmır - cavabdehin xəbəri yoxmuş;
Səhər-səhər arxasınca qarğış eyləyib,
Kimsə dedi: - Daş ürəyi evdən soyuqmuş!

Qapı qəbul günündə də möhkəm bağlıdır,
Sərt rəisin nə vecinə intizam, qanun;
Təqaüdçü qoca arvad tamam haqlıdır;
"Allah versin cəzasını zalım oğlunun!".

Holfstrim! Holfstrim! İsti cərəyan,*
Qütbə tərəf yol getməyin lap möcüzədir!
Sularında ılıq nəfəs, hərarət yayan,
Sularında həyat eşqi gəzdirən nəhr!

Səni andım, dalğalandım mən də dəniz tək,
İncimәsin şöhrət tacı, mükafat ad-san;
"Bu torpağın övladıyam" deyənin gərək
Holfstrim kimi axsın damarında qan!

**Atlantik okeanın mərkəzindən Arktikayadək hərəkət edən tropik axın*

### ƏN HEYRƏTLİSİ...

Tez-tez dalğalanıb ərzə yayılan,
Qəribə söz-söhbət eşidirik hey.
Düzün kölgəsinə sığınır yalan,
Qat -qat şişirdilir bəzən adi şey.

Bermud üçbucağı açılmamış sirr,
Ovunu havada, suda tutub o;
İtənin, batanın sayı bilinmir,
Nə qədər təyyarə, gəmi udub o.

Əsrin narahatlıq çağıdır indi,
Sehirli siqnallar gəlir fəzadan.
"Uçan boşqab"ın da artıb şahidi,
Ən uzaq ulduzda guya var adam.

Qar adam - hələlik ilğım, möcüzə,
İzi tapılsa da, özü hanı bəs?
Nə vaxt su altından çıxacaq üzə
İngilis gölündə gizlənən kələz?

Çoxdur dolayları ömür yolunun,
Bədxaha inanıb mərd də yanılar.
Qorxaq qaranlıqdan qaçır ki, onun
Görünər gözünə qulyabanılar.

Bahar - təbəssümü, zəlzələ - hirsi,
Dünya açılmamış sirr oylağıdır.
Fəqət, xəbərlərinə heyrətlisi
Alçağın zirvədən boylanmağıdır!